# Nəsillər dəyişəcək, bu şərəfli gün heç zaman unudulmayacaq

*Təsis edilən şəhər günləri qüruru, qələbəni, zəfəri, ləyaqəti, qəhrəmanlığı, şücaəti əks etdirir. Şəhərlərin də taleyi var, onlar da doğulurlar, böyüyürlər, yaşa dolurlar, gözlənilməz hadisələrlə üzləşirlər, işğala məruz qalırlar, dağıntılar baş verir, hətta yer üzündən silinib gedirlər. Bax elə bizim işğaldan azad edilən yurd yerlərinin dəhşətli mənzərəsi bütün dünyaya haray çəkir ki, ermənilər urbisid törədiblər, şəhərlərdən qisas alıblar. Tarixi ədalətsizliyi aradan qaldıran və qazanılan şanlı qələbənin Sərkərdəsi işğaldan azad edilən şəhərlərin yeni ad günlərinin keçirilməsinə uzaqgörənliklə, müdrikliklə, böyük məhəbbətlə qərar verib.*

Həmin şəhər günlərinin keçirilməsi hərbi uğurun, qəhrəmanlıq irsinin, milli birliyin, şəhidlərin əziz xatirəsinin əbədiləşdirilməsi deməkdir və bu çox böyük mənəvi dəyərə, qiymətə və alqışa layiqdir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2023-cü il 31 iyul tarixli Sərəncamında dəyişiklik edib və 20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü elan edilib. Bu qərar tarixi və siyasi əhəmiyyət daşıyır, dərin razılıqla qarşılanır. Xalqımız artıq dörd ildir ki, işğal günlərini deyil, qələbəni qeyd edir, şəhər günlərini bayram kimi keçirir. İşğaldan azad edilən torpaqlara Böyük Qayıdış başlayıb və onun təntənəsinə şəhər günləri daha böyük məna qatır. Xalqımız qürur, iftixar, sevinc və doğma torpaq təntənəsini yaşayır. Qırx dörd günlük müharibə bizim gücümüzü, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını, xalqımızın birliyini göstərdi. Xalqımız bir yumruq kimi birləşdi, ordumuz düşmənə sarsıdıcı zərbələr endirdi, işğalçıları torpağımızdan qovdu. Qarabağ və Şərqi Zəngəzur 30 ildən sonra azadlığına qovuşub. Rəşadətli Silahlı Qüvvələrimiz dörd il bundan əvvəl və ötən il sentyabrın 19-da Azərbaycanın qaysaq tutmayan yaralı qəlbinə məlhəm qoydu, yadelli işğalçıları torpaqlarımızdan qovdular, erməni separatizminə son qoydular, sərhədlərimizi, ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etdilər, üreklərinin başında gəzdirdikləri üçrəngli bayrağımızı işğaldan azad edilən torpaqlara sancdılar.

Hər il sentyabrın 20-də Xankəndi şəhər günü qürurla, sevinclə qeyd ediləcək. Otuz ildən artıq dünyanı öz uydurma və yalanlarına inandırmağa çalışan erməni separatçılarının Xankəndidəki "mərkəzi qərargahı", separatizm yuvası rolunu oynamış "hökumət binası"nda indi Azərbaycan bayrağı dalğalanır. Bir zamanlar adama yuxu, xəyal kimi görünən, 30 il işğalda qalan torpaqların azad edilməsi ədalətin, həqiqətin təntənəsidir, inamın, fədakarlığın, diplomatik məharətin, cəsarətin, qəhrəmanlığın təsdiqidir. Sözün əsl mənasında, qədim yurd yerimiz olan Xankəndi son otuz il ərzində daşnak hayların, separatçıların, terrorçuların, dünyanın müxtəlif yerlərindən gətirilmiş cinayətkarların, çörəyi dizinin üstündə olan, xəyanətkar ermənilərin bayquş yuvasına çevrilmişdi. O yuva dağıdıldı, havası təmizləndi. Xankəndi azaddır, əcdadlarımızın ruhu dinclik tapdı, şəhidlərimizin qisası alındı, şər, şeytan yuvası əbədilik dağıdıldı. Zənnimizcə, xoşbəxtliyin bundan başqa rəngi yoxdur. Xankəndiyə qayıdışla bağlı bütün infrastruktur yenilənir və bərpa edilir. Millət, Dövlət və Ordu olaraq savaşaraq haqqımızı, şərəfimizi ucaltdıq, ədaləti Dəmir Yumruqla qazandıq!

Uzun illərin həsrətindən sonra doğma yurdlarına qayıdan xocalıların sevincinin həddi-hüdudu bilinmir. Deyirlər ki, çox şükür edirik ki, yurd həsrətimizə son qoyulur. Xocalıya qayıtmaq hər kəsin arzusudur, inanırıq ki, Xocalıda övladlarımızın, nəvələrimizin gələcəyini quracağıq. Sanki yuxu görürük, amma bu bir həqiqətdir ki, biz Xocalıya qayıtmışıq. Qürur hissi keçiririk ki, Xocalımız artıq azaddır. Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız işğaldan azad edildi, Azərbaycan bütövləşdi. Qalib xalqın övladı kimi Xocalıya qayıdırıq. 31 il işğalda olan Xocalının azad olunmasından qısa müddət keçməsinə baxmayaraq, artıq ərazidə sürətli bərpa, quruculuq aparılır. Xocalı yenidən qurulur, məcburi köçkünlər öz torpaqlarına qayıdırlar. Keçmiş köçkün ailələri müasir tipli evlərlə təmin olunur. Xocalı minalardan, hərbi sursatlardan təmizlənib və yenidən qurulur. Burada hər biri ikigirişli olmaqla üçmərtəbəli 15 binada ikiotaqlı, üçotaqlı və dördotaqlı 80 mənzil var. Kompleksdə uşaq oyun meydançaları, idman qurğuları, idman meydançası, söhbətgahlar yaradılıb. Mayın 28-də - Müstəqillik Günündə Xocalı şəhərinə ilk qayıdan sakinlərə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən evlərin açarlarının təqdim olunması, sakinlərlə səmimi görüş tarixi hadisədir. Prezident İlham Əliyev ötən il oktyabrın 15-də Xocalıda üçrəngli Bayrağımızı ucaltdıqdan və mayın 28-də şəhərə qayıdışın başlanmasından sonra soyqırımı qurbanlarının, bütün şəhidlərimizin ruhları rahatdır. İlk dəfə olaraq bu soyqırımının 32-ci ildönümü məhz Xocalı şəhərində də anıldı. Fevralın 26-da Azərbaycan Prezidenti İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Xocalı şəhərində bərpa-quruculuq işlərinə başlandıqdan cəmi bir neçə ay sonra keçmiş məcburi köçkünlərin qayıdışı başlandı. Bütün xalqımız da bu hadisəyə sevinir. Çünki soyqırımına məruz qalmış Xocalıya 32 ildən sonra şərəfli həyat qayıdır. Ötən ilin 19-20 sentyabr tarixində qəhrəman Silahlı Qüvvələrimizin bölmələrinin keçirdiyi antiterror tədbirləri nəticəsində Xocalı şəhəri erməni separatçılarından təmizlənərək işğaldan azad edildi. Bu tarixi gün xocalıların həyatına günəş kimi doğdu. Xocalılar indi sentyabrın 20-ni şəhər günü kimi qeyd edir.

Qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanıdır, müharibənin hər bir günü bizim yaddaşımızdır, kədərimizdir, eyni zamanda qürurumuzdur. Ordumuzun qeyrətli, vətənpərvər, qəhrəman oğulları, cəsur, cəngavər əsgərləri, zabitləri, istehkamçıları, hava hücumundan müdafiə qüvvələrinin bölmələri Ali Baş Komandanın rəhbərliyi ilə illərdir həsrət qaldığımız bölgələrimizi, kəndlərimizi, qəsəbələrimizi, qədim yurd yerlərimizi, dağlarımızı, meşələrimizi, çöllərimizi öz canları, qanları bahasına azad etdilər. Həmin yurd yerlərindən biri də Xocavənddir. 2020-ci il oktyabrın 9-da müzəffər ordumuzun bölmələri uğurlu hərbi əməliyyat keçirərək Xocavənd rayonunun Hadrut qəsəbəsini və rayonun 35 kəndini Ermənistanın işğalından azad etdi. Uzun illər xocavəndlilərin qəlbində gəzdirdiyi nisgil, kədər, həsrət sevincə, qürura, fərəhə çevrilib. Doğma yurd, Xocavəndin bir parçası, iki çayın arasında yerləşən Hadrut düşmən caynağından xilas edilib. İyirmi səkkiz il yurd həsrəti ilə yaşayan xocavəndlilərin ən böyük arzusu doğma yurdlarına qayıtmaq idi. Həmin günü səbirsizliklə, ümidlə gözləyiblər. Nə xoş ki, yurd yerlərinə qayıdış başlanıb. Qarabağ İqtisadi Rayonuna daxil olan Xocavənd böyük strateji əhəmiyyəti ilə yanaşı, həm də iqtisadi potensialı ilə də fərqlənir. Hər daşı, mağarası ilə tarixin canlı şahidi olan Xocavənd turizm, sənaye, aqrar, eləcə də xidmət sahələrinə görə başqa bölgələrlə müqayisədə xeyli üstünlüyə malikdir. Mütəxəssislərin qənaətinə görə, Hadrut qəsəbəsi və bütövlükdə Xocavənd rayonu Cənubi Qafqazda fasiləsiz turizm potensialı xidmətləri təklif ediləcək azsaylı bölgələrimizdən biri hesab olunur. Xocavəndlilərin taleyinə öz doğma şəhərlərinin ad gününü - şəhər gününü yaşamaq da yazılıbmış, nəsillər dəyşəcək, lakin bu şərəfli gün heç zaman unudulmayacaq.

Vaxtilə Ağdərədən karvan yolu da keçib. Adı da təbiətin bu nadir gözəlliyini, ağ dərələri ifadə edir. Çox qiymətli və zəngin meşə örtüyü Ağdərəyə xüsusi bir gözəllik verir. Yeri gəlmişkən, qeyd edək ki, ərazinin 44 faizini meşələr tutur. Tərtər çayı vadisindəki Şərq çinarı meşəsi xüsusi olaraq qorunurdu. Təbii ki, işğal illərində haylar həmin meşələrə vəhşiliklə, qəsddən və qəsbkarlıqla ziyan vurublar, təbiətin xoş ahənginə kirli əlləri ilə qara rəng qatıblar. Ağdərənin səthi əsasən dağlıq, şərq hissəsi isə düzənliklərdən ibarətdir. Ağdərə Azərbaycan rayonlarından biri olub. 2016-cı ilin aprelində Qarabağda gedən qanlı döyüşlərin əsas istiqamətlərindən biri keçmiş Ağdərə rayonunun ərazisi oldu. Silahlı Qüvvələrimiz Qarabağda atəşkəsi pozan Ermənistan ordusuna qarşı cavab tədbiri zamanı bu istiqamətdə Seysulan kəndini və Talış kəndinin ətrafındakı yüksəklikləri azad etdi. Lakin Seysulana nəzarəti əldə saxlamaq mümkün olmadı. 2020-ci ilin 27 sentyabr tarixində başlayan və 44 gün davam edən Vətən müharibəsi Ağdərə rayonunun ərazisindəki Madagiz (Suqovuşan qəsəbəsi) və Talış kəndi düşməndən tamamilə azad olundu. Üçtərəfli Bəyanatın müddəalarını kobud surətdə pozan Ermənistan ordusu 2021-ci il avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdi. 19 sentyabr 2023-cü ildə başlanan lokal xarakterli antiterror əməliyyatları çox sarsıdıcı oldu və 23 saatdan sonra separatçılar, Ermənistan ordusunun qalıqları ağ bayraq qaldırdılar. Sentyabrın 24-də Ağdərə işğaldan azad edildi. Qalib Ali Baş Komandan İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Ağdərədə dalğalanan bayrağımız hər bir azərbaycanlıya qürur və iftixar yaşadır. Azərbaycan tarixinin şanlı səhifəsini təşkil edən İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Qələbə dövlət başçısı İlham Əliyevin liderlik missiyasının ən parlaq ifadəsi, təzahürü və özünütəsdiqi sayılır. Ağdərə öz tarixinin yeni səhifəsinə qədəm qoyur, vaxtilə ləğv edilmiş rayon statusu dövlət başçısının qərarı ilə bərpa edilib və yaxın zamanlarda Ağdərə öz keçmişinə və xoşbəxt gələcəyinə qovuşacaq. Həm də ağdərəlilər sentyabrın 20-də şəhər gününü təntənə ilə qeyd edirlər.

**Salman ALIOĞLU,**
**"Respublika".**



Xankəndi



Xocalı



Xocavənd